# Xətai rayonu: sosial-iqtisadi inkişaf yüksək templə davam edir





*2014-cü ilin sosial-iqtisadi inkişafın yekunlarına və 2015-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağını **rayon icra hakimiyyətinin başçısı Razim Məmmədov** açaraq ötən ilin ölkəmizin davamlı inkişafı, makroiqtisadi sabitliyin möhkəmlənməsi, əhalinin rifahının daha da yüksəlməsi, ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artması ili kimi tarixə düşdüyünü qeyd etdi. Sonra natiq sözünə davam edərək dedi:*

—Ölkənin davamlı inkişafının təmin olunmasında, dünya iqtisadiyyatındakı böhran meyillərinin, enerji bazarında ötən il başlamış qiymətlərin enməsinin ölkəmizdə mənfi təsirinin qarşısının alınmasında cənab Prezidentin uzaqgörənliklə həyata keçirdiyi sosial-iqtisadi siyasət, o cümlədən bu siyasətin prioritet istiqamətlərindən olan iqtisadiyyatın şaxələndirilməsi həlledici rola malikdir.

Bunun nəticəsidir ki, son 5 ildə iqtisadiyyatın artımı əsasən qeyri-neft sektorunun inkişafı hesabına təmin olunmuş, ümumi daxili məhsulda qeyri-neft sektorunun xüsusi çəkisi 47 faizdən 60 faizə çatmışdır.

Ötən illər ərzində müasir infrastruktur təminatının yaradılması, çoxsaylı layihələrin icrası, biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması, sahibkarlığın inkişaf etdirilməsi, regionların inkişaf strategiyasının uğurla həyata keçirilməsi dayanıqlı iqtisadi inkişaf üçün möhkəm təməl formalaşdırmışdır.

Bu uğurların əsasında isə cənab Prezident İlham Əliyevin ulu öndərin kursunu uğurla davam etdirməsi dayanır. Məhz bu müdrik siyasətin nəticəsində artıq dünyada 6 ildən çoxdur ki, davam edən və bir çox ölkələrdə siyasi, iqtisadi, sosial problemlərlə müşayiət olunan böhran proseslərinə baxmayaraq, Azərbaycan sürətlə inkişaf edən ölkələrdən olmuş, makroiqtisadi sabitlik qorunmuş, iqtisadiyyatın rəqabət qabiliyyəti artmış, nəzərdə tutulmuş bütün sosial proqramlar yerinə yetirilmişdir.

Əldə olunmuş nailiyyətlər, eləcə də bəzi ölkələrdə yaşanan ciddi iqtisadi problemlər, valyuta və enerji bazarlarında kəskin təlatümlər fonunda 2014-cü ildə Azərbaycanın sosial-iqtisadi inkişafının uğurlu yekunları Prezident İlham Əliyevin inkişaf modelinin alternativsiz olduğunu bir daha göstərir.

Cənab Prezidentin düşünülmüş siyasəti nəticəsində ölkəmizin güclü iqtisadiyyata malik olması sosial sahələrə diqqətin daim artıtılmasına imkan verir.

Ölkəmizdə iqtisadi və digər sahələrdə əldə olunmuş nailiyyətlərdə Bakı şəhər rayonlarının, o cümlədən Xətai rayonunun müstəsna rolu var. Belə ki, ilin yekunlarına görə rayonun iqtisadi və sosial sahələrdə baş vermiş dəyişiklikləri əks etdirən makroiqtisadi göstəricilər məhsul istehsalı və xidmət sahələrinin dinamik inkişafını və onlara mütənasib olaraq sosial məsələlərin uğurla həll edildiyini göstərir.

2014-cü ilin yekununda rayonda 1 milyard 15 milyon 139,8 min manatlıq sənaye məhsulu istehsal edilmiş və xidmətlər göstərilmişdir. İl ərzində istehlakçılara göndərilən sənaye məhsulunun həcmi isə sənaye məhsulu istehsalının 100,1 faizini təşkil etmişdir.

İqtisadiyyatın başqa sahələrində olduğu kimi, istehlak bazarında da müsbət nəticələr əldə olunmuş, hesabat ilində əvvəlki ilin eyni dövründəkindən 25,3 faiz çox geniş çeşidli istehlak malları satılmış və 1,9 faiz çox pullu xidmətlər göstərilmişdir. Pərakəndə əmtəə dövriyyəsinin və əhaliyə göstərilən pullu xidmətlərin həcminin getdikcə artmasına digər səbəblərlə yanaşı, istehlak bazarının müxtəlif çeşidli əmtəə ehtiyatları ilə təmin olunması, əhalinin həyat səviyyəsinin yüksəlməsi nəticəsində alıcılıq qabiliyyətinin artması öz müsbət təsirini göstərmişdir.

Hesabat dövründə rayonun tikinti kompleksində iqtisadi və sosial sahələrin inkişafı üçün bütün mənbələr hesabına 324 milyon 659,7 min manat məbləğində investisiyadan istifadə olunmuş, 115 milyon 363,6 min manatlıq əsas fondlar istifadəyə verilmiş, tikinti-quraşdırma işlərinin həcmi 45,8 faiz çoxalaraq 222 milyon 843,5 min manat olmuşdur. Podratçı təşkilatların gördükləri işlərin həcmi (yeni tikinti, yenidənqurma, genişləndirmə, texniki vasitələrin yenidən təchiz edilməsi) 4,4 faiz artaraq 1 milyard 302 milyon 579,9 min manata çatmışdır.

Sahibkarlığın inkişaf etdirilməsi üçün hüquqi bazanın möhkəmləndirilməsi, dövlət tərəfindən hərtərəfli dəstəyin verilməsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müəyyən etdiyi iqtisadi siyasətin əsas istiqamətlərindəndir. Respublikanın hər yerində olduğu kimi, rayonumuzda da sahibkarlığın dəstəklənməsi və inkişafı başlıca məqsədlərimizdən biri olmuşdur.

Aztəminatlı təbəqələrin, əlil və şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, pensiyaların, sosial müavinətlərin və ünvanlı sosial yardımların ödənilməsində gecikmə hallarının qarşısının alınması, məcburi dövlət sosial sığorta haqqı üzrə sığorta olunanlar barədə məlumatların toplanması üçün tədbirlər görülmüş və bu vacib məsələlər diqqətdə saxlanılmışdır. Rayonda əhalinin maddi rifah halının davamlı olaraq yaxşılaşmasına, vətəndaşların sosial müdafiəsinin təşkilinə diqqət artırılmışdır.

Cənab Prezidentin həyata keçirdiyi düzgün, uzaqgörən, uğurlu sosial-iqtisadi siyasətin və uğurla icra olunan layihələrin real nəticəsidir ki, Bakı şəhəri və eləcə də respublikamızın regionları inkişaf edərək son illərdə öz simasını tam dəyişmişdir. Bu dəyişiklik bizim rayonumuzda da əhəmiyyətli dərəcədə olmuşdur və inkişaf prosesini bu gün də davam etdiririk.

İl ərzində aparılan abadlaşdırma və yenidənqurma işlərinin həcmi artmış, Bakı Ağ şəhər layihəsinin inşası sürətləndirilmiş, Boks Federasiyası İdman Kompleksinin tikintisi davam etdirilmiş, Fransız məktəbinin tikintisi başa çatdırılmış, yeni Ağ Şəhər bulvar kompleksində işlərin sürəti artırılmışdır.

Rayonda ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində xeyli işlər görülmüş, yolların təmiri və tikintisi daim diqqət mərkəzində olmuşdur. Hər il cənab Prezidentin iştirakı ilə ümumrespublika tədbirinin keçirildiyi Xocalı prospektində də yüksək səviyyədə abadlaşdırma işləri aparılmış, rayon ərazisində qəzalı vəziyyətdə olan binalarda yaşayan sakinlərin təhlükəsizliyinin təminatı, həmçinin məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması da rayon icra hakimiyyətinin diqqətində olmuşdur. Rayonun sosial-iqtisadi həyatında son illər müşahidə olunan sürətli inkişaf 2014-cü ildə də davam etmiş, sosial, iqtisadi sahələrdə yeni nailiyyətlərlə müşahidə olunmuşdur. 2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının icrası uğurla həyata keçirilmişdir. Bu və digər proqramlar Bakı şəhərində, o cümlədən rayonda sosial infrastrukturun müasir tələblərə uyğun şəkildə qurulmasında müstəsna əhəmiyyət kəsb edir.

"2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nda nəzərdə tutulduğu kimi bir sıra təhsil müəssisəsi əsaslı təmir olunmuş, səhiyyə müəssisələrində yenidənqurma işləri aparılmışdır. Rayonun səhiyyə müəssisələrində yaradılan şərait əhaliyə ən yüksək səviyyədə tibbi xidmət göstərməyə və vaxtaşırı tibbi mayinədən keçirməyə imkan verir. Ölkə rəhbərinin tapşırığı ilə bu ilin fevral-may aylarında əhalinin tibbi müayinədən keçirilməsi kimi vacib kampaniyanın uğurla aparılması üçün rayonun səhiyyə işçiləri tam səfərbər olunmuşlar. Məlumat üçün bildirirəm ki, cənab Prezidentin tapşırığı ilə bu il də əhalinin tibbi müayinədən keçirilməsinə başlanılmışdır. Hazırda bu iş uğurla davam etdirilir.

Gənclər siyasətinin Azərbaycan Respublikasının dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğunu nəzərə alaraq, hesabat dövründə Gənclər və İdman İdarəsi ilə birgə milli-mənəvi və ümumbəşəri dəyərlərin qorunması, gənclərin vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi ilə əlaqədar müəyyən tədbirlər keçirilmişdir. Belə tədbirlərdən biri də cənab Prezidentin tapşırığı ilə "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən tur-aksiyadır. İki mərhələdən ibarət olan bu tədbirdə rayonumuzun IX-XI sinif şagirdlərindən ibarət 80 nəfəri iştirak edərək respublikamızın qərb bölgəsi ilə tanış olmuşdur.

Gənclər Günü münasibətilə rayonun fəal gənclərinin nümayəndələri ilə keçirilən görüşdə rayonun ictimai-siyasi, təhsil, idman həyatında fərqlənən bir qrup gənc rayon icra hakimiyyətinin fəxri fərmanı və qiymətli hədiyyələri ilə təltif olunmuşdur.

Hesabat dövründə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və görkəmli oftalmoloq alim, ictimai xadim, akademik Zərifə xanım Əliyevanın anadan olmalarının 91 illiyi xüsusi plan əsasında qeyd edilmişdir.

İl ərzində rayonun icra hakimiyyətinin fəaliyyətinin prioritet istiqamətlərindən birini də xalqımızın ümummilli lideri Heydər Əliyevin ictimai-siyasi və mənəvi-ideoloji irsinin öyrənilməsi, tədqiqi və Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin respublikanın hərtərəfli və sürətli sosial-iqtisadi inkişafına yönələn uğurlu daxili və xarici siyasətinin təbliği üzrə təşviqat işlərinin aparılması, çıxış və nitqlərinin öyrənilməsi və geniş ictimaiyyətə çatdırılması təşkil etmişdir.

Rayonun xidmət təsərrüfatının normal fəaliyyəti, mənzil fondunun qorunub saxlanılması, təmizlik işlərinin aparılması, yaşayış binalarının istiliklə təminatının yaxşılaşdırılması, sanitar təmizliyi və s. məsələlər də gündəlik fəaliyyətimizin əsasını təşkil etmişdir.

Rayon ərazisində fəaliyyət göstərən bir qəsəbə və dörd sahə inzibati ərazi dairəsində yeni yaradılmış nümayəndəliklərdə idarəetmənin ilkin təzahürləri formalaşmış, ev təsərrüfatının uçotunun aparılması işləri davam etdirilmiş, ərazilərindəki idarə, müəssisə və təşkilatlar, özəl strukturlarla işin səmərəli təşkilini təmin etməsi üçün operativ idarəetmə mərkəzi yaradılmışdır.

Hüquq-mühafizə orqanlarının məqsədyönlü fəaliyyəti sayəsində rayonda ictimai asayişin qorunması, qanunçuluğun möhkəmləndirilməsi və cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi təmin edilmişdir.

Vətəndaşların yazılı və şifahi şəkildə təkliflər vermək ərizə ilə müraciət etmək hüquqlarının həyata keçirilməsi üçün zəruri şərait yaradılmış, qanunvericilikdə müəyyən edilmiş qaydada və müddətlərdə onlara cavab verilməsi təmin olunmuş, vətəndaşların mütəmadi qəbulu təşkil edilmiş, səyyar görüş qəbullara daha çox üstünlük verilmişdir.

Əminliklə deyə bilərəm ki, ulu öndərin siyasi kursunun layiqli davamçısı cənab Prezident İlham Əliyevin qarşımızda qoyduğu vəzifələrin uğurla icra olunması və sakinlərin həyat tərzinin maksimum səviyyəyə çatdırılması üçün rayonumuzun kollektivləri bundan sonra da öz səylərini artıracaqlar.

Tədbirdə iştirak edən millət vəkilləri Hüseynbala Mirələmov, Səməd Seyidov və Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçisi Tağı Tağıyev çıxış edərək öz fikirlərini bildirmişlər.

Sonda ölkə başçısına yığıncaq iştirakçıları adından müraciət qəbul olunmuşdur.

**Zümrüd ABDULLAYEVA,**
**"Respublika".**
**Foto S.MƏMMƏDİNDİR.**